# TARİXİNİ YAZ

Vaxt çatıb hər anın tarixini yaz,
Yetişən zamanın tarixini yaz.

Əzəli məfhumun varisləriyik,
Sübhanda Sübhanın tarixini yaz.

Bizdədir Zərdüştün odu-ocağı,
Gəl Azərbaycanın tarixini yaz.

Zəfər bayrağını Şuşada sancıb,
Vilayətdə Kanın tarixini yaz.

Zikr edənlərini görübən çağır,
Kitabı-Quranın tarixini yaz.

Bu gün-gələcəyi, sabahı düşün,
Ölkədə üsyanın tarixini yaz.

Səlis yürüşlərin bir yadına sal,
O ulu xaqanın tarixini yaz.

Bunca yad elə gəl Şah İsmayılı,
Gəl layiq olanın tarixini yaz.

Damarında xəlqin təlatüm edən,
Axan bu qanın tarixini yaz.

Xocalıda olan faciələri,
Dəqiq qətlianın tarixini yaz.

Bunca kimliyini tanıdıb bədə,
Qeyrətli insanın tarixini yaz.

Dünyanın fövtündə duran ədanın,
Atəşdə yananın tarixini yaz.

Müsübəti onun özündən betər,
Göldə dolananın tarixini yaz.

Orda qeydiyyatı sən dəqiq apar,
Dad çəkən amanın tarixini yaz.

Qürurunu görsət bədnam qonşuya,
Təsdiqi-meydanın tarixini yaz.

Orda tifağları vurub baş-başa,
Xisli-Əşiranın tarixini yaz.

Vərəqlə tarixi tarix yanında,
Xosrovi-Kəyanın tarixini yaz.

İşin gedişatı vaxtına çəkib,
Əhli-xanədanın tarixini yaz.

Köklü ağacların rişəsi dərin,
Ənuşirəvanın tarixini yaz.

Xərabət-əhlini bir düşündürüb,
Qalan bir viranın tarixini yaz.

O odlu-alovlu günlərlə birgə,
Düzdə sərgərdanın tarixini yaz.

Çəkib aparanda talehə ürcah,
Əsiri-zindanın tarixini yaz.

Bu cəlal sənindir hakim də sənsən,
Təxti-Süleymanın tarixini yaz.

Araşdırmalarda yaddan çıxmasın,
Qədimi ünvanın tarixini yaz.

Gecəni, gündüzdə Ağ-yola qədər,
Ərşdəki karvanın tarixini yaz.

Ruhlandır işinlə gəl bu milləti,
Dərgahi-divanın tarixini yaz.

Göyləri-əzanı qübbəli edib,
O sirli-nihanın tarixini yaz.

Millətin ruhuna baş çəkib orda,
Şəbində-hicranın tarixini yaz.

Təhrif etməsinlər qoy nadanları,
Kəsbidə dövranın tarixini yaz.

Yeddidə-doqquzu əfsəli bilib,
Bu mülki-ərkanın tarixini yaz.

Sonraya saxlama indi həll elə,
Ruhunda bu canın tarixini yaz.

Aləmi-gərdişdə rəhbəri eşit,
Əzəli-cahanın tarixini yaz.

Bəşər hesabatın versin bizlərə,
Naleyi-əfğanın tarixini yaz.

Haray eylə gəl sən Qan-yaddaşına,
Bu kövni-məkanın tarixini yaz.

Bildirənlərini arizə yetir,
Qədəri bu şanın tarixini yaz.

Özünə yurd qurub bu elatında,
Qibleyi-əyanın tarixini yaz.

Həsrətin çəkdiyin yerlərə üz tut,
Yenidən hər yanın tarxini yaz.

Bil torpağ kimlərdən əmanət qalıb,
Dərk et, Cavidanın tarixini yaz.

Bilal, əqidədə şərəf bizimdir,
Yolda yol tutanın tarixini yaz.

***BİLAL,***
***Azərbaycan***
***Yazıçılar Birliyini üzvü,***
***"Qızıl qələm" mükafatçısı,***
***şair-filosof***

Kredo 2020.- 14 dekabr.- S.17.